*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2025, №1* *ISSN: 2664-5432*
*Səhifə: 52-56*
*https://doi.org/10.59849/2664-5432.2025.1.52*

**Elçin İSMAYILOV***

# VƏNƏND VƏ VƏND KOMPONENTLİ ETNOTOPONİMLƏR HAQQINDA QEYDLƏR

**XÜLASƏ**

Bu məqalədə Qərvənd etnotoponiminin etimoloji mənası ilə bağlı araşdırmalar oxuculara təqdim edilir. Bundan başqa Qərvənd etnotoponimlərinin yerləşmə arealları da göstərilir. Vənd komponentinin nə məna verməyi və hansı başqa toponimlərdə işləndiyi göstərilir. Ümumilikdə Azərbaycanda vənd komponenti ilə mövcud olan başqa toponimlər də sadalanır. Vənd və vənənd sözlərinin mənaları araşdırılır. Bu əsərdə Azərbaycanda vənənd və vənd komponentli etnotoponimlərin eyni məzmun daşımadığı fikri irəli sürülür.

**Açar sözlər:** *toponim, Vənd, onomastik vahid, qədim, Qarabağ.*

Azərbaycanın onomastik sistemində toponimlərin xüsusilə etnotoponimlərin böyük yeri vardır. Apardığımız qeyri-dəqiq araşdırmalara görə, Azərbaycan toponimlərinin təxminən yarıdan çoxu məhz etnonimlərlə bağlıdır. Etnonimlər toponim yaradıcılığında gah xalq adı kimi, məsələn, tatar (Şəmkir rayonu kənd adı), Xaldan (Yevlax rayonu qəsəbə adı), Qarxun-qara hun (Yevlax rayonu və Naxçıvan Muxtar Respublikasında kənd), gah azsaylı xalq kimi məsələn Qırız (Quba rayonu), Haputlu (İsmayıllı, Quba rayonu), Qurdlar (Kürdəmir, Ağdam, Naxçıvan Muxtar Respublikası). Bəzən də hər hansı bir xalqa məxsus olan tayfa adı kimi iştirak edir. Məsələn, Kəngərli (Bərdə, Kürdəmir, Naxçıvan Muxtar Respublikası Kəngərli rayonları), Padar (Şamaxı, Ağsu, Hacıqabul, Şəki, Qəbələ, Qazax, Gürcüstan respublikası), Qaramanlı (Ucar rayonu, Yevlax rayonu, Neftçala rayonu, Cənubi Azərbaycanın Qaradağ mahalı), Muradxanlı (Kürdəmir rayonu, İmişli rayonu, Qubadlı rayonu, Masallı rayonu).

Bildiririk ki, tayfa adlarından yaranmış etnotoponimlərin əksəriyyəti birbaşa tayfa adından yaransa da, bəziləri həmin tayfaya məxsus bu və ya digər tirənin adından törəmişdir. Məsələn, Muradxanlı tayfası Kəngərli tayfasının bir tirəsidir. Topalhəsənli tayfası (xatırladaq ki, Topalhəsənli etnotoponimləri Göygöl və Kürdəmir rayonlarında mövcuddur) Şahsevən tayfasının bir tirəsidir.

Belə etnotoponimlərin birinin də adı Qərvənd etnotoponimidir. Qərvənd etnotoponiminə Azərbaycanın bir sıra regionlarında rast gəlinməkdədir. Baxmayaraq ki, bu etnotoponimi müxtəlif şəkildə izah etməyə çalışırlar, ancaq gəlinən nəticə budur ki, Qərvənd sözü qara və vənənd sözlərinin birləşməsindən əmələ gəlmişdir.

Vənənd sözünün mənşəyi haqqında danışan Ə.Salamzadə və K.Məmmədzadə kəndin Cümə məscidindəki kitabəsini tədqiq edən V.M.Sısoyevə istinadən belə qənaətə gəlirlər ki, kəndin adı Azərbaycanın məşhur Əlvəndi tayfasının adından götürülmüşdür". [Salamzadə, Məmmədzadə: 1985, s.34].

Professor Adil Bayramov "Naxçıvan Oykonimləri" kitabında vənənd adı ilə bağlı yazır: Bu ad Azadciran nahiyəsində qeydə alınmış [İrəvan əyalətinin icmal dəftəri:1996, s.54]və zəmanəmizə qədər qorunub saxlanılmışdır. Bir rəvayətə görə, bu kənd eramızdan əvvəl salınmış və ilkin adı Ferverdin olmuşdur. Digər bir söyləmədə isə Vənəndin alman mənşəli söz olduğu və vən sözündən törədiyi iddia edilir. Guya başqa yerlərdə az bitən vən ağac

---

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Toponimika şöbəsinin müdiri, fil.ü.f.d., dosent

növü kənddə meşələr şəklində olub. Elə bu fikrə əsaslanan K.N.Smirov bu adın Vanvend sözündən əmələ gəldiyini və “meşə yeri” mənası bildirdiyini yazır. [Смирнов: Тифлис, 1934])

Bizcə, bu fikirlərin heç biri inandırıcı deyil. Əvvəla, almanların bu ərazidə yaşamaları hansı tarixi faktlarla sübut olunub? İkincisi, vən sözünün vənlik şəklində yozmaq heç bir məntiqə uyğun deyil. Bu müəlliflərdən fərqli olaraq Q. Qeybullayev və Ə. Fərəcov (M. Xorenliyə əsaslanaraq) Vənənd sözünün tarixi kökünün hələ miladdan əvvəl II minillikdə Azərbaycan ərazisində yaşayan bulqar tayfa adı əsasında yarandığını və kəndin Türkiyənin Qars Vilayətinin eyniadlı kəndindən gələnlər tərəfindən salındığını qeyd edirlər. [Qeybullayev: 1977, №6 s. 12-14]. Bu faktı S. Əliyarov “Kitabi Dədə Qorqud” dastanının 1988-ci il nəşrinə yazdığı “Tarixi-coğrafi qeydlər”ində daha ətraflı açıqlayır. O yazır: “Kitabda yad edilən qədim etnonimlərdən biri, protobulqarlara aiddir. Erməni tarixçisi Xorenli Moiseyə görə, onları Zaqafqaziyaya Vexendur Bulqar Vənd adlı bir başçı miladdan qabaq II yüz ildə gətirib yerləşdirmiş, saldıqları kəndlər tarixçi Xorenlinin vaxtında, yəni 700 il keçdikdən sonra Vənənd adlanmışdır. Hazırda, hadisədən 2200 il keçdikdən sonra Vənənd, Vənətli, Vənədi kəndləri (Ordubad, Zəngilan, Lerik rayonları), beş Qarvənd kəndi (Füzuli, Ağdam, Qasım İsmayıllı rayonları), onlarca tərkibində “vənd” sonluğu olan kəndlərimiz (Yaqlavənd, Papravənd, Xocavənd, Bozavənd, Bürvənd, Zuvandlı və b.) öz adlarında həmin protobulqar izini yaşatmaqdadır. Göytürklər kimi protobulqarlar da dil baxımından oğuz (daha doğrusu, protooğuz) soyuna mənsub olmuşlar. [Kitabi-Dədə Qorqud: 1988, s.27].

Bizcə, Vənənd sözünün mənşəyinin tayfa adı ilə əlaqələndirilməsi daha inandırıcıdır, ancaq bu sözün hansı tayfa adı ilə bağlı olması hələ açıqlanmayıb.

Görkəmli tarixçi, filologiya elmləri doktoru, professor Yusif Yusifov özünün “Şərq Tarixi” əsərində eyniadlı etnotoponimin hələ qədim Elam ərazisində mövcud olduğunu qeyd edirdi. Lakin toponimlərdə Vənəndin əsasən vənd şəkilində qalması bəzi paralellərə, bəzən də yanlışlıqlara yol açmışdır. Məsələn, Füzuli rayonunun Qərvənd kəndi işğaldan əvvəl xalq etimologiyasına uyğun olaraq Qərbənd kimi yazılırdı. Azərbaycanın Qarabağ iqtisadi rayonunun bəzi kəndlərində vənd komponentinə rast gəlinməkdədir. Məsələn, Ağdam rayonunda Sıxravənd, Papravənd, Yağlıvənd adlı toponimlər mövcuddur. Zərdab rayonunda da Əlvənd adlı kənd vardır.

Bəzi alimlər vənd sözünü vələd sözünün başqa bir şəkili kimi izah edərək bu komponenti “oğlu nəslindən olan” kimi də izah edirlər. Məsələn, Zərdab rayonun da yerləşən Əlvənd toponimi Səfəvi şahzadəsi Əlvənd mirzənin adı ilə bağlıdır. Əlvənd Mirzənin adına gəldikdə isə bu antroponimi Əliyə məxsus, Əlidən gələn kimi, yəni Əlizadə adının qarşılığı kimi anlamaq lazımdır. Filologiya üzrə fəlsəfə doktoru, Elmira Əhmədova “Azərbaycan etnonimləri” kitabında bu məsələyə toxunaraq yazır: Vənd formatı əsasında formalaşanlar: əlvənd,qərvənd (gərayvənd), xocavənd, hacıqərvənd, pənahvənd, xanqərvənd, tərkeşəvənd, papravənd, buravənd və s.

Fikrimizcə, etnonimlərin yaranmasında iştirak etmiş vənd komponenti də “tayfa, nəsil, tirə” mənasını ifadə edir. Əksəriyyəti toponimlərimizdə əks olunan vənd komponentli adlardan danışarkən T.M.Əhmədov bu sözü etnoformant hesab etmiş, mənbələrdə və tədqiqat işlərində bu sahədəki fikirləri belə yekunlasdırmışdır: XIX əsrə aid mənbələrin birində vənd aşağıdakı kimi izah olunur: “Tayfaların bir çoxu özünü bu sonda gələn sözlə nişan verirlər, bu söz türcədəki – lı, yaxud – ar (Osmanlı, Qacar), ərəbcədəki ibn (oğlu) sözlərinə müvafiq gəlir. Belə ki, Şahsevənd Lənkəran qəzası sərhədində böyük türk tayfası,

Panavənd, yaxud Pənahvənd, Alvənd. Y.N.Buşuyeva həmin fikri müdafiə edərək qeyd edir ki, vənd sözü “ittifaq, birlik, tayfa, bəzən də uşağı, oğlu sözlərinin sinonimi kimi işlədilir” [Əhmədov: 1999, s.166].

Qərvənd kəndləri çox olduğu üçün hər kəndin fərqləndirici əlaməti vardır. Məsələn, Goranboy rayonunda yerləşən Qərvənd kəndinə Xan Qərvəndi, Ağdam rayonunda yerləşən Qərvənd kəndinə isə Baş Qərvənd sözünü əlavə etmişlər. Orta Qərvənd Ağdam, Ayaq Qərvənd Ağdam. Böyük Qərvənd Füzuli rayonu, Kiçik Qərvənd Füzuli rayonu, İmarət Qərvənd Ağdərə, Hacı Qərvənd Tərtər.

Qarabağ iqtisadi rayonunda yerləşən Xocavənd kəndi indi strateji əhəmiyyətli bir kənd kimi böyük əhəmiyyət daşımaqdadır. Vənd sözünün “nəsil davamçısı” mənası ifadə etməsinin bir sübutu da Azərbaycanın cənub bölgəsində yerləşən Alvadı etnotoponimidir. Bu sözün də ilkin mənası Əli nəslindən olanlar deməkdir. Göründüyü kimi apardığımız bu qısa tədqiqat vənd sözü ilə bağlı mövcud toponimlərin zənginliyinin bir sübutudur. Və vənd komponentli etnotoponimlərin etimoloji izahının müxtəlifliyi də diqqəti cəlb etməkdədir. Alimlərin fikirləri haçalansa da, həm vənd sözünü vənəndlə bağlayanlar, həm də bu sözü nəsil davamçı kimi izah edənlər haqlı kimi görünürlər. Bizim gəldiyimiz şəxsi qənaət isə bundan ibarətdir ki, bu toponimlər formalaşarkən, çox güman ki, hər iki versiyada göstərilən fikirlər aktual olmuşdur.

Biz Qərvənd tayfasının mənşəyini Kəbirli tayfası ilə bağlamaq cəhdlərini də qəbul etmirik. Kəbirli tayfasının adı belə (Kəbir ərəbcə “böyük” deməkdir) bu tayfanın tarixinin Qərvənd etnotoponimi qədər qədim olmadığın sübut edir. Fikrimizcə, bu məsələdə professor S. Əlyarlı daha haqlıdır.

Bəzi toponimlər vənəndlə, bəziləri vəndlə bağlı ola bilərlər. Vənd sözünü vənk və bənd sözü ilə bağlayanlar isə fikrimizcə yanılırlar. Bildiyimiz kimi vənd kilsə mənasını verən bir sözdür. Məsələn, Əlvənd sözünü kilsə ilə necə bağlamaq olar? Bənd komponentinə gəldikdə isə bir qayda olaraq bu cür ad daşıyan yaşayış məntəqələri dağlıq ərazidə yerləşir. Lakin vəndlə bağlı olan kəndlərin, demək olar ki, hamısı ölkəmizin düzənlik ərazilərində mövcuddur.

Tədqiqatımız zamanı bəzi məsələlərin diqqətimizdən qaçmaq ehtimalını yox saymırıq. Ona görə də oxucularımızdan qabaqcadan üzr istəyirik.

**ƏDƏBİYYAT:**

1. İrəvan əyalətinin icmal dəftəri, Bakı, Elm, 1996, 184 s.
2. “Kitabi-Dədə Qorqud” dastanları, Bakı: Yazıçı, 1988, 309 s.
3. Qeybullayev Q. Naxçıvanın bəzi oykonimləri haqqında // “Elm və həyat”, 1977, №6 səh. 12-14.
4. Salamzadə Ə., Məmmədzadə K. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri, Bakı, Elm, 1985, 267 s.
5. Смирнов Н. К. Материалы по истории и этнографии Нахичеванского края (Тифлис, 1934 г.), Баку: Озан, 1999.
6. Əhmədov T. Azərbaycan toponimikasının əsasları, Bakı: 1999, 312 s.

## ПРИМЕЧАНИЯ ОБ ЭТНОТОПОНИМАХ С КОМПОНЕНТАМИ ВЕНАНД И ВЕНД

**РЕЗЮМЕ**

Данная статья знакомит читателей с исследованиями этимологического значения Гарвендской этнотопонимии. Кроме того, указаны ареалы этнотопонимов Гарвенда. Показано, что означает компонент «Венд» и в каких еще топонимах он используется. В целом другие топонимы в Азербайджане обозначаются венд-компонентом. Исследуются значения слов венд и венанд. В данной работе предполагается, что этнотопонимы с компонентами «Венанд» и «Венд» в Азербайджане не имеют одинакового значения.

**Ключевые слова:** *топоним, Венд, ономастическая единица, древний, Карабах.*

## NOTES ON ETHNOTOPONYMS WITH VENAND AND VEND COMPONENTS

**SUMMARY**

In this article, research on the etymological meaning of Garvand ethnotoponymy is presented to the readers. In addition, the areas of Garvand ethnotoponyms are also shown. It is shown what the Vend component means and in which other toponyms it is used. In general, it is listed in other toponyms that exist in Azerbaijan with the vand component. The meanings of the words vand and vnand are investigated. In this work, it is suggested that the ethnotoponyms with the "venand" and "vend" components in Azerbaijan do not have the same content.

**Key words:** *toponym, Vend, onomastic unit, ancient, Karabakh.*